**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXIII buraxılış, Bakı, 2023
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXIII выпуск, Баку, 2023*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Arts, XXXXIII edition, Baku, 2023*

## KİNO, TELE VƏ DİGƏR EKRAN SƏNƏTLƏRİ

**UOT 791**
**DOI:10.52094/152412.43.2023.17**

**Nabat Elşad qızı Hüseynova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Doktorant**
**E-mail: nabathuseynova14@gmail.com**

# SİTKOM SERİALININ KATEQORİYALARI

**Xülasə:** Təqdim olunan məqalədə müasir tamaşaçıların maraqla və sevərək izlədiyi sitkom seriallarının üç kateqoriyasının izahı verilir. Məqalədə həmin kateqoriyaların hər birinin səciyyəvi cəhətlərindən ətraflı şəkildə bəhs edilir, onlar arasındakı oxşar və fərqli cəhətlər aydınlaşdırılır.

**Açar sözlər:** sitkom, actcom, domcom, dramediya, televiziya serialı, personaj

Situasiya komediyaları, yəni "sitkom" gündəlik həyatlarını yaşayarkən yumoristik situasiyalarla qarşılaşan personajlardan bəhs edən televiziya serialı janrıdır. "Sitkom" termini 1951-ci ildə "Mən Lusini sevirəm" ("I love Lucy") televiziya serialı yayımlandıqdan sonra yarandı (4). Zaman keçdikcə populyarlaşan, müasir dövrdə ən sevilən janrlardan biri olan, şaquli struktura malik sitkomun subjanrları ilə yanaşı fərqli kateqoriyaları da formalaşmışdır. Həmin kateqoriyalar aşağıdakılardır:

1) ActCom;
2) DomCom;
3) Dramedy (1).

Sitkomun hər üç kateqoriyasının bir sıra ortaq cəhətləri olsa da, (məsələn, hər üç sitkom növü şaquli süjet xəttinə malikdir, yaranmış konflikt elə həmin bölümdə həllini tapır, növbəti bölümdə yeni problem ortaya çıxır) hər biri onu digərindən fərqləndirən bir sıra xüsusiyyətlərə sahibdir.

Sitkomun hər kateqoriyasını ayrı-ayrılıqda nəzərdən keçirək.

AktCom termini "hərəkətlər komediyası" kimi tərcümə edilən "action comedy" ifadəsinin qısaldılmış formasından yaranıb. Adından da göründüyü kimi, bu tip sitkomlarda gülüş doğuran əsas məqam məhz qəhrəmanların əməlləridir. Müəyyən

çətinlikləri dəf etməyə çalışan, lakin hər dəfə uğursuzluğa düçar olan və bununla da tamaşaçıları güldürən sitkom seriallarını aktCom kateqoriyasına aid etmək olar.

Həm actCom, həm domComun qəhrəmanları üçün səciyyəvi cəhət onların bir ailənin üzvləri ola bilməsidir. Müəllif Skot Sedita (Scott Sedita) “Komediyanın səkkiz qəhrəmanı. Sitkom aktyorluğu və yazıçılığı üçün bələdçi” (“The Eight Characters of Comedy. A Guide to Sitcom Acting & Writing”) kitabında sitkomlardakı ailələri belə təsvir edir. “Televiziya yaranandan bu günə qədər, əksər sitkomlar ailə ideyasına əsaslanır. “Bəs bu ailə nə cür ailədir?” Həmin ailə qohumlardan, dostlar qrupundan, bir-birini sevən, lakin bir-biri ilə münaqişəsi olan, sevinc, kədər və həyatın təqdim etdiyi hər şeyi bir-biri ilə paylaşan ailədir” (3). Lakin actCom və domCom bir çox cəhətinə görə bir-birindən fərqlənir.

ActCom seriallarında konfliktə səbəb olan amillər qəhrəmanlar arasındakı anlaşılmazlıqlar, başqalarının davranışına təsir etmək cəhdləri, həmçinin gözlənilməz hallardır. Qəhrəman hər şeyin yolunda getdiyini düşünərkən gözlənilmədən çətinə düşür, onun çaşqınlığı, situasiyadan çıxmaq cəhdləri tamaşaçıda gülüş doğurur.

Məsələn, son dövrlərin ən populyar actCom seriallarından biri olan “Dostlar” (“Friends”) serialının qəhrəmanlarından biri olan Reyçel (Rachel) ani qərarla öyrəşdiyi dəbdəbəli həyatı geridə qoyaraq öz ayaqları üstündə durmağa çalışsa da, birinci sezon boyu onun yeni həyata öyrəşmək üçün atdığı hər addım, hər cəhdi gözlənilməz halla qarşı-qarşıya gəlməsinə səbəb olur. Onun bu situasiyalardan çıxmaq cəhdləri tamaşaçının gülüşünə səbəb olur.

ActCom qəhrəmanları serial boyu, demək olar ki, inkişaf etmirlər. Bu sitkomların qəhrəmanlarına aid daha bir cəhət müəlliflərin onların hiss və emosiyalarını mübaliğəli şəkildə çatdırmaqlarıdır. Vaşinqton Universitetinin professoru Riçard Taflinqer (Richard F. Taflinger) “Sitkom nədir?” (“Sitcom: What It Is, How It Works”) kitabında actCom qəhrəmanların qəsdən şişirdilmiş hərəkətlərini bu cür təsvir edir: “Əgər qəhrəman aşiqdirsə, məqsədsizcə ortalıqda dolaşır, ah çəkir; əgər ağlayırsa, gözlərini möhkəm sıxır və uca səslə zarıyır; əgər qəhrəman əsəbidirsə, saçlarını yolur, gözlərini süzür, qışqırır” (2).

Hərəkətlərə əsaslanan actCom seriallarından fərqli olaraq, domCom seriallarında əsas diqqət personajlara, onların duyğularına, habelə digər insanlar və cəmiyyətlə münasibətlərinə verilir. DomCom termini “Domestic Comedy” (“Ailə komediyası”) sözündən yaranıb. Adından da bəlli olduğu kimi, burada ailə amili

böyük rol oynayır. Bu serialların konfliktlərinə nəsillərarası fərqlilik (generation gap), üsyankar yeniyetmələr, mühafizəkar ailə üzvləri kimi amillər səbəb olur.

2011-2013-cü illərdə yayımlanan Xəzər TV-də yayımlanan "Aramızda qalsın" serialının qəhrəmanları arasındakı ziddiyyət onların eyni məsələyə fərqli nöqteyinəzərlərdən yanaşmasından qaynaqlanır. Belə ki, Mehman (Qurban Məsimov) mühafizəkar personajdır, onun həyat yoldaşı Yeganə (Kamilə Babayeva) isə müasirlik tərəfdarıdır. Onlar uşaqlarının problemlərini müxtəlif mövqelərdən yanaşaraq həll etməyə səy göstərmələri aralarında konflikt yaradır.

ActCom personajları daha səthi olsalar da, domCom personajları onlarla müqayisədə daha mürəkkəb və dərin olurlar. Onlar cəmiyyətdə baş verən hadisələri, ətraflarındakı insanları anlamağa çalışırlar. Bu səbəbdəndir ki, domCom personajları süjet irəlilədikcə az da dəyişir, inkişaf edir. Fərqli mövqelərdən çıxış edən ailə üzvləri hər bölümün sonunda hər iki tərəfi razı sala biləcək həll yolu tapırlar. Bundan əlavə, "fərqli xarakterli, zidd fikirli personajların bir arada olması onların xarakterindəki əsas xüsusiyyətlərin qabardılmasına xidmət edir" (1). DomCom özü də bir neçə növə ayrılır:

1. Standart;
2. Valideyn – övlad (single parent);
3. Psevdo-domCom (pseudo-domcom) (2).

DomCom seriallarının hər bir növünü ayrılıqda nəzərdən keçirək. Standart domCom qəhrəmanları ailənin üzvləri – ana, ata, övladlar aiddir. Bu növə aid domComları nəzərdən keçirsək görərik ki, hadisələr adətən evdə baş verir, konflikt ailənin böyük üzvlərinin fikirlərinin toqquşması nəticəsində yaranır. Uşaqlar, adətən, katalizator rolunda çıxış edirlər. Standart domComlara "Aramızda qalsın", 20022019-cu illərdə yayımlanan və Türkiyə istehsalı olan "Uşaqlar xəbər tutmasın" ("Çocuklar duymasın") kimi serialları göstərmək olar.

DomComların ikinci növünü valideyn-övlad adlandırmağımızın səbəbi konfliktin əsasən yaşlı nəslin nümayəndəsi ilə gənc nəsil nümayəndəsinin arasında baş verməsidir. Zənnimizcə, Azərbaycan teleseriallarının ən çox müraciət etdiyi qaynana-gəlin konlfiktli sitkomları da bu kateqoriyaya aid etmək olar (belə seriallara misal olaraq, 2011-2013-cü illərdə Xəzər TV-də yayımlanan Azərbaycan serialı "Qaynana" serialını göstərmək olar).

Psevdo-domComların qəhrəmanlarının qan bağı yoxdur. Onlar bir ailə kimi davranmaq məcburiyyətindədirlər. Sözsüz ki, bu növə iş yerində baş verən sitkomları aid etmək olar. Eyni ortamda işləyən (və ya təhsil alan) müxtəlif

xarakterli insanlar bir "ailəyə" çevrilirlər. 2008-2012-ci illərdə yayımlanan Türkiyə serialı ""Akasya" dayanacağı" serialını psevdo-domComlara aid etmək olar.

Dramediya (dramedy) termini dram (drama) və komediya (comedy) sözlərinin hibrididir. Adından da göründüyü kimi, dramediya janr sərhədlərinin pozulması nəticəsində meydana çıxan yeni sitkom növüdür. Dramediya ilə bağlı vacib bir məqam xüsusilə vurğulanmalıdır: "Dramediya sadəcə "bəzi komediya elementləri olan dram" və ya "bəzi ciddi məqamları olan komediya" deyil. Bu seriallarda dram və komediyadan ibarət hissələr təqribən bərabər olmalıdır" (5).

ActComda əsas diqqət hadisə və hərəkətə, domComda personajla yönəldiyi halda, dramediyada diqqət mərkəzində personajların düşüncəsinə, fikirlərinə yönəlir. Riçard Taflinqer öz kitabında dramediyanın iki növünü fərqləndirir:

1. İnsan dramediyası (human dramedy);
2. Müdafiə dramediyası (advocate dramedy) (2).

İnsan dramediyasında personajlar qarşıya çıxan və personajlardan biri ilə əlaqəli olan problemə qarşı birgə mübarizə apararaq situasiyadan çıxış yolları axtarırlar.

Müdafiə dramediyasında isə konflikt iki fərqli düşüncənin, zidd fikirlərin, nöqteyi-nəzərlərin toqquşmasından yaranır. Bu fikirlərin mənbəyi cəmiyyətdə baş verən müxtəlif hadisələr, problemlər ola bilər. Belə qənaətə gəlmək olar ki, dramediyada müzakirə olunan mövzular domCom və actCom mövzularından daha geniş sahəni əhatə etməsi ilə fərqlənir.

Adından da göründüyü kimi, müdafiə dramediyalarında hər iki tərəf məsələ ilə bağlı öz mövqeyini ortaya qoyur, zidd fikirlə qarşılaşır, sonadək öz fikrini müdafiə etmək üçün əlindən gələn hər şeyi edir.

Dramedilərin süjetini nəzərdən keçirdikdə görmək olar ki, bu seriallarda A süjet xəttini dramatikdir, B süjet xətti isə komediyadır.

## Ədəbiyyat siyahısı:

1. Qafarova G. Ssenari yaradıcılığı 2. Bakı 2020, 169 səh.
2. Richard F. Taflinger. Sitcom: What It Is, How It Works. https://public.wsu.edu/~taflinge/actcom.html
3. Scott Sedita. The Eight Characters of Comedy. A Guide to Sitcom Acting & Writing
4. Смольнякова Анна. Как написать ситком. Лекция 1. https://studfile.net/preview/9370540/
5. Dramedy https://tvtropes.org/pmwiki/pmwiki.php/Main/Dramedy

**Набат Эльшад кызы Гусейнова**
**КАТЕГОРИИ СИТКОМОВ**

**Аннотация:** В представленной статье разъясняются три категории ситкомов, которые с интересом и любовью смотрят современные зрители. В статье подробно описываются характеристики каждой из этих категорий, выясняются сходства и различия между ними.

**Ключевые слова:** ситком, актком, домком, драмеди, сериал, персонаж

**Nabat Elshad gizi Huseynova**

**CATEGORIES OF SITCOMS**

**Summary:** The presented article explains three categories of sitcom series, which are watched with interest and love by modern viewers. The article describes the characteristics of each of the studies in detail, their similarities and differences are clarified.

**Key words:** sitcom, actcom, domcom, dramedy, TV series, character

**Məqalənin redaksiyaya daxil olma tarixi: 23. 09. 2023**